













# "Yaşıl gələcək" həm də bilikli və təşəbbüskar insanlardan asılıdır

*Dünya miqyasında iqlim dəyişmələrinə qarşı mübarizə aparmaq üçün qlobal səylər sürətlə artır. COP29 konfransı bu prosesdə dönüş nöqtəsi kimi yadda qaldı. Bu konfrans planetimizin ekosistemini qorumaq üçün beynəlxalq birliyin konkret addımlar atmasını vurğuladı. Lakin bu addımlar yalnız texnoloji həllərlə məhdudlaşa bilməz. Bilikli, yenilikçi və ekoloji cəhətdən məlumatlı insan resurslarının formalaşdırılması bu məqsədə çatmaq üçün əsas amillərdən biridir. Azərbaycan da bu məqsədə uyğun olaraq "yaşıl iqtisadiyyat"a keçid üçün insan kapitalının artırılmasını prioritet olaraq müəyyən edib.*

COP29 konfransında iştirak edən dövlətlər, o cümlədən Azərbaycan iqlim dəyişilmələrinin təsirlərini azaltmaq üçün insan resurslarının inkişaf etdirilməsinin vacibliyini vurğuladılar. Prezident İlham Əliyev çıxışında bu sahədə görülən işlərdən danışaraq, "yaşıl enerji", təhsil və vətəndaş maarifləndirilməsi sahəsində atılan addımları qeyd etdi. COP29 çərçivəsində qəbul edilən qərarlar iqlim dəyişmələri ilə bağlı mübarizədə insan kapitalının artırılmasını daha da aktuallaşdırdı.

Konfransda vurğulanan əsas mesajlardan biri "bilik əsaslı iqtisadiyyatın" "yaşıl transformasiya" prosesində vacibliyi idi. Azərbaycan bu prinsipi əsas götürərək ekoloji fənlərin təhsil sisteminə inteqrasiyası və alternativ enerji sahəsində peşəkar kadr hazırlığı üzrə layihələr həyata keçirir. COP29-un qərarlarına uyğun olaraq, Azərbaycanda bərpaolunan enerji texnologiyaları sahəsində çalışan mütəxəssislərin hazırlanması üçün beynəlxalq təcrübədən istifadə edilir.

İqlim problemlərinə cavab verən insan kapitalının formalaşdırılması təhsil və elmdən başlayır. COP29-da qəbul edilən qərarlardan biri də ekoloji biliklərin məktəb və universitet proqramlarına daxil edilməsidir. Azərbaycan bu istiqamətdə qabaqcıl addımlar atır. Universitetlərdə "yaşıl texnologiyalar" sahəsində tədqiqatlar aparmaq, beynəlxalq proqramlara qoşulmaq və gənclərin bu sahəyə marağını artırmaq üçün müxtəlif layihələr həyata keçirilir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan və beynəlxalq səviyyədə tanınan "Yaşıl enerji zonası" layihəsi həm yerli, həm də beynəlxalq mütəxəssislərin iştirakını tələb edir. Bu layihələr Azərbaycanın insan kapitalını inkişaf etdirmək üçün yaratdığı strateji platformalardır. COP29 çərçivəsində qəbul edilən əməkdaşlıq modelləri də bu istiqamətdə Azərbaycanın gücünü artırır.

Ölkəmiz alternativ enerji mənbələri üzrə təşəbbüsləri yalnız resurslardan istifadə etməklə məhdudlaşmır, bu təşəbbüslərin həyata keçirilməsi üçün peşəkar kadrlara ehtiyac var. COP29-da bərpaolunan enerji sektorunun qlobal iqtisadiyyatın əsas sütunlarından birinə çevriləcəyi vurğulandı. Azərbaycan bu məqsədlə külək, günəş və hidroenerji sahələrində yeni iş yerləri yaratmaq üçün beynəlxalq sərmayələri cəlb etməklə yanaşı, yerli mütəxəssislərin hazırlanmasına da xüsusi diqqət ayırır.

Məsələn, Qarabağ və Şərqi Zəngəzurda yaradılan "Yaşıl enerji zonası" regionun yalnız enerji mənbələri ilə deyil, həm də ixtisaslı mütəxəssislərlə təmin olunmasını tələb edir. Bu səbəbdən Azərbaycan hökuməti alternativ enerji sahəsində kadr hazırlığı üçün yeni təhsil proqramları tətbiq edir. Azərbaycan bərpaolunan enerji texnologiyaları üzrə beynəlxalq sertifikat proqramlarına qoşularaq mütəxəssislərin ixtisasını artırır.

COP29 konfransı həm də vətəndaşların maarifləndirilməsinin iqlim dəyişmələrinə qarşı mübarizədə vacibliyini bir daha ortaya qoydu. Ölkəmizdə bu istiqamətdə geniş təbliğat kampaniyaları həyata keçirilir. Gənclər arasında ekoloji aksiyalar, məktəblərdə "yaşıl həftələr" kimi tədbirlər və ekoloji problemlərə dair ictimai müzakirələr əhalinin bu sahədə biliklərini artırmağa xidmət edir.

"Yaşıl gələcəy"in qurulması yalnız texnologiyalardan deyil, həm də bu texnologiyaları idarə edəcək bilikli və təşəbbüskar insanlardan asılıdır. COP29 konfransı bu istiqamətdə yeni imkanlar yaratdı və Azərbaycanın "yaşıl iqtisadiyyat" strategiyasını daha da möhkəmləndirdi. İnsan kapitalının artırılması sahəsində aparılan işlər Azərbaycanın təkcə regional deyil, həm də qlobal iqlim mübarizəsində mühüm rol oynayacağını göstərir. Unutmayaq ki, "yaşıl gələcək" güclü təməllər üzərində qurulmuş insan kapitalı ilə mümkündür.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**